*Yubilyarları təbrik edirik!*

# BƏHRAM BƏHLUL OĞLU HÜSEYNOV – 65



Azərbaycanın tanınmış neftçi geoloq-geofiziki Hüseynov Bəhram Bəhlul oğlunun 4 iyun 2021-ci ildə 65 yaşı tamam olmuşdur.

B.B. Hüseynov 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, 1983-cü ildə Azərbaycan Dövlət Neft və Kimya institutunu "Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı" ixtisası üzrə bitirib və həmin ildən "Qum adası" Dənizdə Qazma İşləri İdarəsində geoloq və geoloji şöbənin böyük geoloqu vəzifələrində çalışmışdır. 1988-ci ilin iyulundan "Xəzərdənizneftqaz" İB-nin baş ofisində neft və qaz yataqlarının kəşfiyyatı şöbəsində böyük geoloq, 1992-ci ildən isə geoloji şöbənin rəis müavini vəzifələrində işləyib.

O, 1993 - 1994-cü illərdə ABŞ-ın "Amoco" şirkətinin Talsa şəhərindəki elmi-tədqiqat mərkəzində ezamiyyətdə olmuş və birgə layihədə iştirak etmişdir. Ezamiyyə dövründən sonra "Dənizdə Neft və Qazçıxarma" İB-də əmək fəaliyyətini davam etdirmişdir.

1995-ci ilin may ayından Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində (ABƏŞ) vitse-prezidentin müşaviri, 1997-ci ilin iyun ayından geoloji şöbənin böyük geoloqu vəzifələrində çalışıb. 1998-ci ilin iyunundan BP şirkətinin operatoru olduğu "Şahdəniz" layihəsində geoloji kəşfiyyat qrupunun rəhbəri olub. 2000-ci ilin martından 2002-ci ilin dekabr ayına qədər BP-nin Londondakı ofisində "AÇG" yataqlarının II və III fazalarının işlənməsinin geologiya, geofizika və lay mühəndisliyi layihə qrupunun rəhbəri vəzifəsində çalışmışdır. 2002-ci ilin dekabrından 2011-ci ilin yanvarına qədər "AÇG" yatağının işlənməsi layihəsində geoloji qrupun rəhbəri, kəşfiyyat bölümündə yeni quyu planlaşdırılması (New well planning) qrupunun rəhbəri, "Azəri" yatağında hasilatın idarə olunması (Base management) qrupunun rəhbəri, "Azəri" yatağında yeni quyuların layihələndirilməsi və icrası (New well delivery) qrupunun rəhbəri vəzifələrində işləmişdir. 2011-ci ilin yanvarından ARDNŞ-in geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentinin müavini olmuşdur.

B.Hüseynov 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə SOCAR-ın Geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti təyin edilmişdir.

O, SOCAR üzrə geoloji-geofiziki işlərin istiqamətlərinin müəyyənləşdirilməsində və həyata keçirilməsində fəal iştirak və rəhbərlik edir.

Respublika ərazisində yeni neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı istiqamətində işlərin

planlanması və layihələndirilməsində, eləcə də əldə edilmiş geoloji-geofiziki məlumatların dəyərləndirilməsində onun tövsüyyə və rəhbərliyi nəticəsində işlər uğurla davam etdirilir.

Geoloji və geofiziki konfrans və seminarlarda dəyərli məruzələri ilə çıxış edən B.Hüseynov çoxsaylı elmi məqalə və monoqrafiya müəllifidir.

O, özünün həyat və istehsalat təcürbəsini gənclərdən əsirgəməmiş və onların mütəxəssis kimi yetişməsində böyük rolu olmuşdur.

B.Hüseynovun yüksək təşkilatı bacarığı, neft sənayemizin inkişafı naminə apardığı işlər daim yüksək qiymətləndirilmişdir.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülümüş və 2017-ci ildə Əməkdar Mühəndis adı ilə təltif olunmuşdur.

Geofizika və geologiya İdarəsinin rəhbərliyi və əmək kollektivi Bəhram müəllimi – Azərbaycanın tanınmış geoloq-geofizikini, təcrübəli mütəxəssisi, xeyirxah insan və bacarıqlı rəhbərini anadan olmasının 65 illiyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır!